AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*əlyazması hüququnda*

**QAYE EMİN QIZI ARSLAN**

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏXLAQ TƏRBİYƏSİNDƏ AZƏRBAYCAN VƏ TÜRK FOLKLOR NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN İMKANLARI

5804.01. – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Kərim Alı oğlu Məmmədov**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor*

**Rəsmi opponentlər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar müəllim*

**Laləzar Kazım qızı Cəfərova**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetini Pedaqogika kafedrası

Müdafiə "29" dekabr 2015-ci ildə saat _____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ___" __________ 2015-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.Quliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi bütün dövrlər üçün aktual olan bir problemdir. Xüsusilə məktəbəqədər yaşlı uşaqların əxlaqının folklor nümunələri vasitəsilə saflaşdırılması daima diqqət mərkəzində saxlanılır. Çünki həm toplanılmış folklor materialları, həm də yenicə toplanılan şifahi xalq yaradıcılığı nümunələri yetişən nəslin əxlaqi sifətlərinin üzə çıxarılması və inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Şifahi xalq yaradıcılığı nümunələri, hər şeydən əvvəl, məktəbəqədər təhsilin səmərəliliyini təmin edən didaktik materiallar hesab olunur. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 13 aprel 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi proqramı"nda məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işlərinin inkişaf etdirilməsi, formalaşdırılaraq təkmilləşdirilməsi tövsiyə olunur. Həmin dövlət sənədində 2007-2010-cu illər üçün məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən maarifçilik işlərinin kökündən yaxşılaşdırılması "... məktəbəqədər təlim-tərbiyə prosesinin məzmunca yeniləşdirilməsi, uşaqların fiziki, əqli və psixoloji inkişafı, onların məktəbə hazırlıq baxımından beynəlxalq təhsil məkanında son mütərəqqi təcrübənin öyrənilməsi və tətbiqi"[1] geniş mənada tövsiyə olunur. Bu tövsiyələri nəzərə alarkən folklor materiallarının gücündən istifadə etməklə yanaşı, beynəlxalq təcrübə nümunəsi kimi Türkiyədəki məktəbəqədər təhsil təcrübəsinə müraciət edilməsi də məsələnin aktuallığını artıran şərtlərdəndir. Bu baxımdan Azərbaycan-türk folklorunun birgə imkanlarından istifadə etməklə yetişən nəslin hər iki nümayəndəsinin əxlaq tərbiyəsinin əsas cəhətlərinin üzə çıxarılması və formalaşdırılması işi həm Azərbaycanda, həm də Türkiyədə ilk hadisə hesab olunduğu üçün öz aktuallığı ilə seçilir. Azərbaycan folkloru ilə yanaşı, türk folklorunun da milli əxlaqi koloritinin uşaqlara lap kiçik yaşlardan etibarən aşılanması onları daha mükəmməl tərbiyə olunmağa istiqamətləndirir. Bu istiqamət üzrə tərbiyə olunan azərbaycanlı uşağı ən nümunəvi türk əxlaqının təsirindən bəhrələnərsə, türk uşağı da ən pak Azərbaycan əxlaqi sifətlərindən əsl örnəklər götürür. Bütün bunlar isə, Azərbaycan və türk

---

[1] Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşməsi proqramı. Layihə, 13 aprel, 2007.

folklorundan nəşət edən nümunəvi əxlaqi normaların, ümumtürk əxlaqı üçün meyar rolunu oynaya biləcəyini söyləməyə əsas verir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarının 10 sentyabr 2009-cu il tarixdə imzaladığı sərəncamda məktəbəqədər təhsil sisteminin müasir səviyyədə qurulması göstərilir. "Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə əlaqədar əlavə tədbirlər barədə"[2] adlanan həmin sərəncamda göstərilir ki, məktəbəqədər təhsil sisteminin müasir səviyyədə qurulması, uşaqların intellektual, fiziki, psixoloji inkişafı üçün şəraitin yaradılması, onların şəxsiyyətinin formalaşdırılması, təlim-tərbiyə prosesinin məzmunca yeniləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. "Biz bir millət, iki dövlətik" deyən böyük öndər Heydər Əliyevin adını daşıyan fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın məktəbəqədər təhsil sisteminin müasir səviyyədə qurulması ilə bağlı həyata keçirdiyi işləri bu tədbirlərin ən ümdəsi hesab etmək olar. Bu tədbirlərin sırasında Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişafı ilə bağlı ciddi tədqiqatların aparılması dissertasiya mövzusunun aktuallığını artıran ən mühüm şərtlərdən hesab olunur.

Ümumiyyətlə desək, ictimai şüurun ən başlıca formalarından biri olan əxlaq hər bir adamın mənəvi simasını, həm özünə, həm də digər insanlara, bütövlükdə sosial mühitə olan münasibətini müəyyən edən ədəb-ərkan normalarının məcmusudur. Əxlaq adamların yaşamaq, işləmək, çalışmaq, haqq-ədalət normaları uğrunda mübarizə aparmaq kimi fəaliyyətləri prosesində meydana gəlmiş, tədricən cilalanmış və formalaşaraq mənəvi keyfiyyətlər toplusuna çevrilmişdir. Bəzən əxlaqlı adamlara ədəb-ərkanlı adamlar deyirlər. Deməli, əxlaq anlayışı ədəb-ərkan anlayışının sinonimi kimi də başa düşülür. İstər əxlaq normaları, istərsə də ədəb-ərkan normaları deyəndə çoxsaylı mənəvi keyfiyyətlərin məcmusu anlaşılır. Nəsirəddin Tusiyə görə, əxlaqi sifətlərin, əxlaq normaları və qaydaları saysız-hesabsızdır. Çünki hər yaranan yeni adətlər, hər meydana gələn yeni ənənələr öz əxlaq normalarını da yaradır. Folklor nümunələri min illər boyu yaranan əxlaqi dəyərlərin təcəssümünü tapdığı əsas mənbələr kimi şifahi xalq yaradıcılığı materialları hesab olunur. Hər bir folklor nümunəsinin uşaqlara aşıladığı əxlaqi normalar onların gələcək nümunəvi həyatının stimuluna çevrilir. Üstəlik Azərbaycan və türk

---

[2] Azərbaycan Respublikasının "Təhsil haqqında" qanunu. 10 sentyabr 2009.

folklorunun birgə təsirindən yaranan əxlaqi sifətlər yeni bir tərbiyə məktəbinin məhsulu kimi də dəyərləndirilə bilər.

Məktəbəqədər yaşlı uşaqların istər əxlaq tərbiyəsi, istərsə də uşaq folklorunun tədqiqi sahəsində həm Azərbaycanda, həm də Türkiyədə kifayət qədər işlər görülmüşdür. Respublikamızda F.B.Köçərli, M.H.Təhmasib, H.Araslı, Ə.Axundov, T.Fərzəliyev, P.Əfəndiyev, M.Həkimov, İ.Abbasov, S.Qəniyev, B.Abdulla, A.Nəbiyev, B.Şahsoylu, Q.Namazəliyev, Ə.Quliyev, S.Pirsultanlı, N.Seyidov və digər bu kimi görkəmli folklorşünas alimlər Azərbaycan folklorunun ən zəngin növlərini toplayaraq sistemə salmışlar. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi ilə bağlı tədqiqat aparan pedaqoq alimlərdən M.Mehdizada, N.Kazımov, Ə.Həşimov, F.Sadıqov, A.Abbasov, Ə.Ağayev, Y.Talıbov, V.Xəlilov, B.Əhmədov, A.Həsənov, S.Axundov və başqaları bu sahədə xeyli iş görmüşlər. Bunların sırasında V.Xəlilov, X.Səlimxanova, A.Həsənov, Ş.Əliyeva, T.Sadıqovanın tədqiqatları diqqəti daha çox cəlb edir. Lakin onların heç biri folklor nümunələri vasitəsilə uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması probleminə dair geniş tədqiqat aparmamış və əsərlər yazmamışlar. Eyni sözləri türk folkloru ilə bağlı tədqiqat və araşdırmalar aparan alimlər və folklorşünaslar barədə də demək olar.

Bir qədər müfəssəl aydınlaşdırsaq deməliyik ki, türk folklor materiallarını toplayan tədqiqatçıların bir qismi həmin nümunələri "Qədim türk eposu" kimi, bir qismi "Qədim türk şeiri" kimi, bir qismi isə "Qədim türk nəsri" başlığı altında toplayıb nəşr etdirmişdir.

Ahmet Rasim, Hüseyni Rahmi Gürpınar, Halid Ziya Uşaklıgil, Mehmet Emin Yurdakul, Cenab Şahabetdin, Mehmet Akif Ersoy, Mehmet Rauf, Halide Edip Adıvar, Memduh Şevket Esendal, Abdülhak Şinasi Hisar, Ömer Seyfetdin, Yahya Kemal, Ahmet Haşim, Cevat Şakir Kabaağaçlı, Şevket Arı, Refiq Halid Karay, Yaqup Qadri Qaraosmanoğlu, Reşat Nuri Güntekin, A.Hikmet Müftüoğlu, Xalit Fexri Ozansoy, Aşıq Veysel Şatıroğlu, Yusuf Ziya Ortaç, Eli Mümtaz Arolat, Faruk Nafiz Çamlıbel, İbrahim Alaatdin Gövsa, A.Peyami Safa, Efkari, Ehmed Qudsi Tecer, Ehmed Hemdi Tanpınar, Nazim Hikmet Ran, Eli İzzet Özkan, Suut Kemal Yetkin, Zeki Ömer Defne, Arif Nihat Asya, Hüseyin Nihal Atsız, Necip Fazıl Kısakürek, Cevat Fehmi Başkut, Said Faiq Abasıyanıq, Sebahaddin Eli, Asaf Xalet Çelebi, Yaşar Nebi Nayır, Ehmed Mühip Dranas, Semet Ağaoğlu, Kemal Tahir, Ziya Osman Saba, Cahit Sıtkı Tarancı, Rıfat İlqaz, Bedri Rahmi Eyüboğlu, Oktay Rifat Xorozcu kimi tədqiqatçılar belələrindəndir. Digər bir qrup türk yazarları folklor

nümunələrini "Türk çoçuk ədəbiyyatı" nümunəsi kimi tədqiq edərək onları toplu halında çap etdirmişlər.

Türkiyə Respublikasının direktiv sənədlərinin tələblərinə müvafiq olaraq folklorun dastan və nəzm janrları nümunələri ilə bağlı tədqiqat aparan müasir türk yazarlarından Mustafa Kemal Atatürkün silahdaşı Kazım Karabekir Paşa Naxçıvanda olanda özü də uşaqlar üçün edəbi əsərlər yazmışdır. Türk yazarları Katib Çelebi, Yusif Balasuqunlu, Əhməd Yuqnəki, Əhməd Yasəvi,Yunus Emre, Mevlana Cəlaləddin Rumi, Ömər Xəyyam kimi folklor biliciləri uşaq ədəbiyyatı nümunələri yaratmışlar.

Orhan Veli Kanık, Fazıl Hüsnü Dağlarca, Coqun Ertepınar, Orhan Kemal, Eziz Nesin, Melih Cevdet Anday, Haldun Taner, Behçet Necatigil, İlhan Geçer, Cahit Külebi, Tarık Buğra, Ceyhun Atıf Qansu, Salah Birsel, Cengiz Dağcı, Sebaheddin Qudret Aksal, Necati Cumalı, Hebib Karaaslan, Yaşar Kemal, Orhan Asena, Fezi Xalıcı, Davud Sulari, Nermi Uygur, Atilla İlxan, Sedat Umran, Bekir Sıtkı Erdoğan, Turgut Uyar, Bahaeddin Özkişi, Nizayi İldırım Gencosmanoğlu, Adalet Ağaoğlu, Qalib Erdem, Güngör Dilmen, Əlləddin Karakoç, Cemal Süreyya – İlhami – Turan Oflazoğlu, Mustafa Necati Sepetçioğlu, Abdürrahim Karakoç, Ehmed Oktay, Gülten Akın, Sezai Karakoç, Hilmi Yavuz, Dinçer Sümer, Emine Işınsu, Yavuz Bülent Bakiler, Erdem Beyazıt, Rasim Özdenören, Cahid Zerifoğlu, Eli Ağbaş, Turgut Günay, Sevinç Çokum, Dilaver Cebeci, İsmet Özel, Mustafa Miyasoğlu, Yahya Akengin, Mustafa Kutlu, Mehmet Emin Alper, Orhan Pamuk, Beşir Ayvazoğlu, Ehmed Turan Alkan kimi yazarları da belələrindən hesab etmək olar. Bütün hallarda istər Azərbaycan alimləri, tədqiqatçıları, folklorşünasları, istərsə də adı çəkilən türk tədqiqatçı-ədiblər Azərbaycan və türk folklor nümunələrinin birgə imkanlarından istifadə etməklə uşaqların əxlaq tərbiyəsi mövzusuna müraciət etməmişlər.

Məhz bunları nəzərə alaraq biz tədqiqatımızı məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində folklor nümunələrindən istifadənin imkanları probleminə həsr etməyi məqsədəuyğun hesab etmişik.

**Tədqiqatın obyekti** məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsidir.

**Tədqiqatın predmeti** məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində Azərbaycan və türk folklor nümunələrindən istifadə təşkil edir.

**Tədqiqatın məqsədi** məktəbəqədər təhsil müəssisələrində və ailələrdə folklor nümunələrinin imkanlarından elmi-pedaqoji əsaslara söykənərək planlı, mütəşəkkil şəkildə istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsini günün tələbləri səviyyəsində formalaşdırmaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi** aşağıdakı şəkildə müəyyənləşdirilmişdir:

- ailələrdə və uşaq bağçalarında Azərbaycan-türk folkloru materialları elmi-pedaqoji əsaslara uyğun düzgün seçilərsə;

- seçilən etnopedaqoji materialların janrlar üzrə bölgüsü düzgün həyata müəyyənləşdirilərsə;

- seçilən etnopedaqoji materialların uşaqlara öyrədilməsi prosesində didaktik prinsiplər, üsullar vasitələr düzgün müəyyənləşdirilərsə;

- öyrədilən folklor nümunələri uşaqların milli, fərdi, psixoloji xüsusiyyətlərinə uyğun seçilərək öyrədilərsə, məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi daha səmərəli həyata keçirilə bilər.

Tədqiqatın məqsədini həyata keçirmək üçün aşağıdakı **vəzifələr** müəyyənləşdirilmişdir:

- məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılmasında folklor nümunələrini düzgün seçmək və onlardan istifadənin əsas istiqamətlərini müəyyən etmək.

- uşaq folklorunda Azərbaycan və türk folklorunun yerini müəyyənləşdirmək;

- ailələrdə və məktəbəqədər təhsil müəssisələrində Azərbaycan və türk folklorunun nümunələrindən istifadə etməklə uşaqlarla əxlaq tərbiyəsi üzrə aparılan işin mahiyyətini və əsas xüsusiyyətlərini öyrənmək;

- problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşunu tədqiq etmək;

- ailələrdə Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin təşkilinin forma, metod və vasitələrini müəyyənləşdirmək;

- məktəbəqədər təhsil müəssisələrində Azərbaycan və türk folklor nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin xüsusiyyətlərini üzə çıxarmaq;

- didaktik oyunların təşkili zamanı Azərbaycan və türk folklor nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdılmasının metodikasnı, pedaqoji və psixoloji xüsusiyyətlərini üzə çıxarıb müəyyənləşdirmək;

- ailədə və məktəbəqədər tərbiyə müəssisələrində həyata keçirilən əxlaq tərbiyəsi işinin xüsusiyyətlərini və səviyyəsini eksperiment yolu ilə təsdiq etmək;

- fərdi və kütləvi oyunların təşkili zamanı folklor materiallarından istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılmasının proqramını işləyib hazırlamaq;

- eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərində həyata keçirilən işin nəticələrini araşdırıb işçi fərziyyənin doğruluğuna uyğun olduğunu təsdiq etmək və alınan nəticələri cədvəllərdə əks etdirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin dərk edilməsi məqsədilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqat prosesində aşağıdakı ümumpedaqoji üsullardan istifadə edilmişdir:

Nəzəri təhlil. Problemlə bağlı etnopedaqoji materiallar, Azərbaycan və türk klassiklərinin, mütəfəkkirlərinin fikirləri, dünya ədəbiyyatından seçmələr və müasir pedaqoji, psixoloji, metodik mənbələr nəzəri cəhətdən təhlilə cəlb edilmişdir.

Müşahidə. Azərbaycan və Türkiyənin bir sıra rayon və vilayətlərində, eləcə də Bakı, Sumqayıt, Ankara, İstanbul, İqdır, Yalova şəhərlərində 3-6 yaşlı uşaqlar, məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər, nəzərdə tutulan ailələr problemlə bağlı müşahidə obyekti kimi seçilmişdir.

Müsahibə. Mövzu ilə bağlı və tədqiqat planına uyğun olaraq uşaqlarla, valideynlərlə, tərbiyəçilərlə, metodistlərlə, musiqi rəhbərləri ilə, bağça müdirləri ilə həm fərdi, həm də qrup halında müsahibələr aparılmışdır.

Anket sorğusu. Bakının,Sumqayıtın, İqdırın, İstanbulun,Yalovanın, Ankaranın bir sıra uşaq bağçalarında və ailələrdə sorğular aparılmışdır. Aparılan sorğuların hər biri anketləşdirilmişdir.

Pedaqoji eksperiment. Tədqiqat planında nəzərdə tutulan uşaq bağçalarında eksperimental iş aparılmışdır. Eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərində alınan nəticələr cədvəllərdə əks etdirilmişdir.

Sənədlərin təhlili. Bir sıra uşaq bağçalarının rəsmi sənədləri araşdırılmış və təhlillər aparılmışdır.

Qabaqcıl təcrübənin öyrənilməsi. Azərbaycan Respublikasının və Türkiyənin bir sıra uşaq bağçalarında və nümunəvi ailələrdə folkor nümunələri vasitəsilə uşaqların əxlaq tərbiyəsinin təşkili təcrübəsi öyrənilmiş, müqayisələr aparılmış və ümumiləşdirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan və türk pedaqoji elmində ilk dəfə olaraq Azərbaycan və türk folklorunun birgə imkanlarından istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması yolları öyrənilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Azərbaycan və türk folklor nümunələrində əxlaq tərbiyəsinin sistemli araşdırılması pedaqoji elmi yeni

informasiyalar ilə zənginləşdirir. Dissertasiya işi hər iki xalq üçün müqayisəli pedaqogikaya mühüm bir töhfədir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatda irəli sürülən təkliflərdən, verilən tövsiyələrdən, sadalanan müddəalardan, yürüdülən mühakimələrdən, aparılan ümumiləşdirmələrdən və alınan nəticələrdən Azərbaycan və türk ailələrində, həmçinin uşaq bağçalarında uşaqların əxlaq tərbiyəsinin praktik təşkilində istifadə etmək olar.

Müdafiəyə aşağıdakı **müddəalar** təqdim olunur:

1. Ailələrdə və uşaq bağçalarında 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin səviyyəsinin yüksəldilməsi, tərbiyənin digər tərkib hissələri ilə vəhdətdə tətbiqindən asılıdır.

2. Azərbaycan və türk folklorunun əxlaq tərbiyəsi baxımından imkanlarının üzə çıxarılması hər iki xalqın ümumtürk koloritində birləşməsi ilə şərtlənir.

3. Azərbaycan və Türkiyə xalqlarının əxlaqi dəyərləri eyni kökdən qaynaqlanır, Azərbaycan və türk folklorunun əxlaqi dəyərləri ümumbəşəri dəyərlərin bir tərkib hissəsidir.

4. Məktəbəqədər təhsil müəssisələrində və ailələrdə Azərbaycan və türk folklorunun imkanlarından istifadə etməklə uşaqların əxlaq tərbiyəsini səmərəli təşkil etmək mümkündür.

**Tədqiqatın bazası.** Tədqiqat, əsasən, Bakı şəhəri Səbail rayonu 1 saylı, Sumqayıt şəhəri 1 saylı və Türkiyənin İqdır şəhərindəki 2 saylı, İstanbulun 111 saylı, Ankaranın 11 saylı və Yalova-Termal qəsəbəsinin bağçalarında aparılmışdır.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işinin mövzusu ilə bağlı aparılan təhlil və araşdırmalar beynəlxalq və ümumresbuplika elmi-praktik konfranslarda məruzə edilmiş və Ali Attestasiya Komissiyanın tövsiyə etdiyi jurnallarda məqalə və tezislər şəklində çap olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, yeddi yarımaltfəsli özündə birləşdirən iki fəsildən, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısıdan ibarətdir.

## TƏDQIQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, fərziyyəsi, məqsədi, vəzifələri, metodoloji əsası, üsulları, bazası, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti və müdafiəyə çıxarılan müddəalar əsaslandırılmışdır.

Dissertasiyanın **“Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılmasında folklor nümunələrindən istifadənin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri” adlanan birinci fəsli** dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə ***“Azərbaycan və türk ədəbiyyatında uşaq folklorunun yeri”*** problemi öz elmi şərhini tapmışdır. Bu yarımfəsildə Azərbaycan və türk folklorunun bir sıra nümunələri, o cümlədən ağılar, laylalar, menkabelər, masallar, nağıllar, dastanlar, mifoloji nümunələr təsnif olunur, onların həm Azərbaycan, həm də türk folklorundakı yeri, rolu, mövqeyi təhlil edilir. Yarımfəsildə uşaqların əxlaq tərbiyəsində mühüm rol oynayan etnopedaqoji nümunələrin, o cümlədən dastanların uşaqların əxlaq tərbiyəsindəki rolu geniş şərh olunur. Yarımfəsildə göstərilir ki, Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli, Hüseyn Qayıbov, Hacı Həsən, Səfərəli bəy Vəlibəyov, İsmayıl Məmməd, Abdulla Şaiq, Salman Mümtaz, kimi Azərbaycan folklorşünasları ilə yanaşı, türk və Avropa folklorşünasları da bu sahədə xüsusi rol oynamışlar. Bizim qənaətinə görə, türk folklorunu əcnəbi tədqiqatçılar da toplamışlar. Avropalı tədqiqatçılardan Radloff, Kunoş, Paul Sebillot, Van Çenner, Edmont Sanssey bir çox xalq ədəbiyyatı nümunələrini toplayaraq çap etdirmişlər. Onların ardınca Ziya Gökalp, Fuad Köprülü, Riza Tevfik kimi türk folklorşünasları türk folklorunun sistem halında toplanılması işində böyük xidmətli göstərmişlər. Türkiyə Cümhuriyyəti dövründə isə Şükrü Elçin Nevzat Kösoğlu, Feridun Alper, M.Emin Alper, Amil Çelebioğlu, Günay Karaağac, Halil Açıqgöz, Mustafa Aslanoğlu, Şakir İbrayev, Erdal Karaman, Ahmet Kömürçü, Erman Artun, Amet Edip Uysal kimi müəlliflər türk folklorunun ən nadir incilərini toplayaraq nəşr etdirmişlər. Onların içərisində isə uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması baxımından dəyərli hesab olunan şifahi xalq ədəbiyyatı nümunələri vardır. Bütün bunlar onu göstərir ki, uşaq folklorunda Azərbaycan və türk folklorunun xüsusi yeri və bənzərsiz rolu vardır.

***“Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə məktəbəqədər yaşlı uşaqlarla əxlaq tərbiyəsi üzrə aparılan işin mahiyyəti”*** adlanan ikinci yarımfəsildə həm ailədə, həm də uşaq bağçalarında Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması işinin mahiyyəti açıqlanır. Bizim qənaətimizə görə, Azərbaycan və türk etnopedaqoji nümunələrinin imkanlarından istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsini inkişaf etdirib formalaşdırmaq üçün elmi-pedaqoji cəhətdən əsaslandırılmış bir sıra spesifik işlərin həyata keçirilməsi məqsədəmüvafiqdir. Bunun üçün:

- Azərbaycan və türk folklorunda mövcud olan uşaq folkloru nümunələrini seçmək, məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişafı üçün yararlı olanları qruplaşdırıb təsnif etmək lazımdır;

- Azərbaycan və türk folklor nümunələrinin müqayisəli təhlilindən əldə edilən milli kolorit elementlərindən, türkçülüyü özündə təcəssüm etdirən nümunələrdən uşaqların əxlaq tərbiyəsini formalaşdırmaq üçün zəruri sayılanları didaktik material halına gətirmək mümkündür;

- musiqi məşğələlərində qəhrəmanlıq dastanlarının mahnı nümunələrinə müraciət etməklə uşaqlarda cəsurluq, igidlik, qələbə əzmi, mübarizlik, düşmənə nifrət kimi əxlaqi sifətləri üzə çıxarmaq olar;

- musiqi məşğələlərində vətənpərvərliklə əlaqədar olan qədim xalq mahnılarının öyrədilməsi və ifası zamanı uşaqlarda vətənsevərlik, yurdsevərlik, torpağa bağlılıq, vətənin sərhədlərinin toxunulmazlığını qorumaq, döyüşkənlik, vətən uğrunda canını qurban verməyə hazır olmaq, düşmənə aman verməmək, düşmənlə barışmazlıq kimi ən ali əxlaqi keyfiyyətləri üzə çıxarmaq mümkündür;

- didaktik oyunlar zamanı Cırtdan, div, at, it, çoban, qurd, ovçu kimi nağıl personajlarının obrazlarını yaradan uşaqlarda dostluq, yoldaşlıq, qardaşlıq, səmimilik, etibarlılıq, sədaqətlilik, qeyrətlilik, el namusunu çəkmək, mətanətlilik, rəşadətlilik, məğlubedilməzlik kimi əxlaqi sifətlərin üzə çıxmasına şərait yaranır;

- məktəbəqədər tərbiyə müəssisələrində həyata keçirilən kütləvi tədbirlərdə uşaqların cinsi tərbiyəsinin nəzərə alınması oğlan və qızlara məxsus olan ayrı-ayrı əxlaqi sifətlərin düzgün müəyyənləşdirilməsinə zəmin yaranmış olur.

***“Problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu”*** adlandırılan üçüncü yarımfəsildə həm Azərbaycanda, həm Türkiyədə, həm də bir sıra xarici ölkələrdə folklor nümunələri vasitəsilə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması problemi ilə bağlı olan araşdırmalarda tədqiq olunan problemin qoyuluşu müqayisəli şəkildə təhlil edilmiş və müəllifin qənaəti belə yekunlaşdırılmışdır:

- Azərbaycan və türk folkloru materiallarında səpələnmiş halda istənilən qədər uşaq folkloru nümunələri vardır. Onların bir qismi məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişafı üçün çox yararlıdır. Lakin onların birgə imkanlarından uşaqların əxlaq tərbiyəsinin təşkili üçün istifadə edilməmişdir;

- Azərbaycanda və Türkiyədə indiyə qədər Azərbaycan-türk folkloru materiallarından istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq

tərbiyəsinin formalaşdırılmasına dair ciddi tədqiqatlar aparılmamış, fundamental monoqrafiyalar hazırlanmamış, irihəcmli kitablar çap edilməmiş, dissertasiyalar yazılmamışdır.

Bütün bunları nəzərə alaraq tədqiqatımızı "Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində Azərbaycan və türk folklor nümunələrindən istifadənin imkanları" mövzusuna həsr etməyi məqsədəuyğun hesab etmişik.

Fəslin sonuncu, dördüncü yarımfəslində problemin həm pedaqoji, həm də psixoloji əsasları aydınlaşdırılaraq elmi şəkildə şərh olunmuşdur.Birinci fəslin "Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin pedaqoji-psixoloji əsasları" adlanan yarımfəslində Azərbaycan və türk folkloru nümunələrindən məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması işində istifadə edərkən bir sıra pedaqoji-psixoloji əsasların nəzərə alınması ilə bağlı elmi-nəzəri ideyalar irəli sürülür.

Bu yarımfəsildə əvvəlcə pedaqoji əsaslardan, sonra isə psixoloji əsaslardan, söhbət açılır. 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşmasında mühüm rol oynayan Azərbaycan və türk folkloru nümunələrindən istifadənin pedaqoji əsasları deyəndə bir sıra ümumpedaqoji tələblərə, prinsiplərə, üsul və vasitələrə istinad olunması nəzərdə tutulur. Folklor nümunələrinə əxlaq tərbiyəsi baxımından yanaşılması üçün 3-6 yaşlı uşaqların psixoloji xüsusiyyətlərinin, o cümlədən maraqlarının, hisslərinin, duyğularının, qavrayışlarının, hafizəsinin, təxəyyül və təfəkkür səviyyələrinin öyrənilməsi də tövsiyə edilir. Yarımfəsil yekunlaşdırılarkən aşağıdakı şəkildə ümumiləşdirmələr aparılır:

- məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində mühüm rol oynayan Azərbaycan və türk folkloru nümunələrinin imkanlarından istifadə edərkən müvafiq ümumpedaqoji prinsiplərə istinad edilməsi, müəyyən üsullardan səmərəli istifadə edilməsi, tələblərin qoyulması, formaların tətbiq edilməsi faydalı olar;
- Azərbaycan və türk folklorunun məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişafı üçün yararlı olan nümunələrindən istifadə edən zaman onların duyulması, qavranılması, hafizədə saxlanılması, təfəkkür və təxəyyül süzgəcindən keçirilərək nitq vasitəsilə ifadə edilməsi, şeir, mahnı və rəqs vasitəsilə təqdim edilməsi problemin müvəffəqiyyətli həllinə kömək etmiş olar;
- məktəbəqədər yaşlı oğlan və qızların bədii yaradıcılıq qabiliyyətləri ilə bağlı iş aparan zaman onların folklor materiallarındakı əxlaq motivlərini, bədii nümunələri ifa etməyə maraq və meyillərinin səviyyəsini üzə çıxarmaq, habelə uşaqların əxlaqi və estetik hisslərini tənzimləmək

haqqında danışılan problemin həllinə kömək edən amillər hesab olunur.

Dissertasiyanın II fəsli **"Ailələrdə və məktəbəqədər müəssisələrdə Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə əxlaq tərbiyəsinin həyata keçirilməsinin imkan və yolları"** adlanır. Fəslin ***"Azərbaycan və türk folklor nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların ailələrdə əxlaq tərbiyəsinin təşkilinin imkanları və yolları"*** adlanan birinci yarımfəslində ailələrdə Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması ilə bağlı bir sıra elmi ideyalar irəli sürülür, elmi mühakimələr yürüdülür və dəyərli tövsiyələr verilir. Həmin tövsiyələrin hər biri ağılar, bayatılar, atalar sözləri, məsəllər, rəvayətlər, nağıllar və dastanların nümunəsində verilərkən həmin nümunələrin əxlaq tərbiyəsi aşılayan tərəfləri öyrədici materiallar şəklində uşaqlara çatdırılır. Dastanların öyrədilməsi zamanı verilən tövsiyələrdən biri belə ifadə olunur:

Məktəbəqədər yaşlı uşaqlara ilk yazılı dastanlar barədə məlumat verməklə onlarda ilkin bilik, bacarıq, vərdişlər sistemi yaratmaq mümkündür. Bunun üçün Göy türkün daş abidələri ilə yanaşı, III-V əsrə məxsus olan və on iki min dana dərisi üzərində yazılan "Avesta" dastanı və dastandakı öyüdlər, nəsihətlər, atalar sözləri və bu məsəllər barədə də uşaqlara məlumatların verilməsi onların əxlaqının saflaşdırılması baxımından çox əhəmiyyətlidir.

II fəslin ***"Məktəbəqədər təhsil müəssisələrində Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsi"*** adlanan ikinci yarımfəslində uşaq bağçalarında problemlə bağlı həyata keçirilən praktik işlərin mahiyyəti şərh edilir. Yarımfəsildə dissertasiyanın planına əsasən müəyyənləşdirilmiş eksperimental bağçalarda tədqiqatın elmi fərziyyəsinə uyğun olaraq hazırlanmış didaktik materialların tətbiqindən bəhs olunur. Tətbiq olunan didaktik materiallar eksperimental qruplar üçün hazırlanan və Azərbaycan və türk folklorundan seçilərək 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılmasına xidmət edən didaktik materiallar kimi işlənərək elmi şəkildə ümumiləşdirilir.

Eksperimental qruplara öyrədilən bu materialın əxlaq tərbiyəsi baxımından imkanları müəyyənedici eksperiment mərhələsindəki nəticələrlə müqayisə olunur. Müqayisəli şərhlərdən aydın olur ki, öyrədici mərhələdə alınan nəticələr müəyyənedici mərhələdəki nəticələrdən çox üstün olar.

Yarımfəsildə göstərilir ki, uşaqların əxlaq tərbiyəsini formalaşdırmağa xidmət edən öyrədici nümunələri sadə dildə, yəni uşaqların yaş xüsusiyyətlərinə uyğun olan bir tərzdə onlara çatdırmaq lazımdır. Uşaqlara

əxlaq tərbiyəsinin belə nümunələrini çatdırdıqdan sonra həmin fikri daha sadə bir dillə şərh etmək lazımdır. Məhz belə təqdirdə uşaqlar etnopedaqoji materiallardakı əxlaq tərbiyəsi elementlərini yaxşı dərk edir, həmin əxlaqi keyfiyyətlərin bir örnək olaraq qəbul edilməsini dərk edirlər.

Yarımfəsildə deyilənləri ümumiləşdirərkən aşağıdakı nəticələrə gəlmək mümkündür:

- ailələrdə Azərbaycan və türk folklor nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsini formalaşdırmaqdan ötrü bu işin düzgün təşkilinin imkanlarını və səmərəli yollarını işləyib hazırlamaq lazımdır;
- Azərbaycan folklor nümunələrinin türk folklor nümunələri ilə əlaqələndirilərək müqayisəli şəkildə uşaqlara çatdırılması uşaqların əxlaq tərbiyəsinin hərtərəfli inkişafını təmin etmiş olur;
- Azərbaycan və türk folklorunun içərisində 3-6 yaşlı uşaqların əxlaq tərbisinin inkişafı üçün zəruri hesab edilən nümunələri seçib onları uşaqların yaş, fərdi, cinsi və psixoloji xüsusiyyətlərinə uyğunlaşdıraraq ailələrdə uşaqlara təqdim edilməsi və öyrədilməsi onların hərətəfli inkişafını təmin etmiş olur;
- ailələrdə bir sıra yazılı, şifahi abidələrin, o cümlədən "Avesta" və Göy türk abidələrinin əxlaq tərbiyəsi ilə bağlı olan nümunələrinin seçilməsi və uşaqların yaşına və axlaq səviyyəsinə uyğunlaşdıraraq onlara çatdırılması mühüm əhəmiyyət kəsb edir. Ailələrdə işin belə qurulması 3-6 yaşlı uşaqların ümumtürk əxlaqının formalaşdırılması işinə mühüm köməklik göstərmiş olur.

İkinci fəslin sonuncu, yəni üçüncü yarımfəsli isə didaktik oyunların təşkili prosesində Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılmasından bəhs edir. "***Didaktik oyunların təşkili zamanı Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması***" adlanan bu yarımfəsildə didaktik oyunlar üçün öyrədici materiallar hazırlanmışdır. Həmin materiallar üzrə həyata keçirilən eksperimental işin məzmunu dissertasiyada aşağıdakı şəkildə şərh olunur.

Biz hazırladığımız öyrədici materialı tədqiqat planına uyğun olaraq əvvəlcədən eksperimental bağça kimi müəyyənləşdirdiymiz Səbail rayon 1 saylı uşaq bağçası və Sumqayıt şəhər 1 saylı uşaq bağcasında eksperimentdən keçirdik. Tərbiyəçi qismində çalışdığımız həmin uşaq bağçasında 3-4 və 5-6 yaşlı uşaqlar üçün hazırladığmız öyrədici materialların hər iki variantının səmərəsini yoxladıq. Öyrədici materialların səmərəsini yoxlayıb qiymətləndirmək üçün tədqiqat planına uyğun olaraq əvvəlcədən kontrol

qruplar kimi seçdiyimiz Səbail rayon 1 saylı uşaq bağçası və Sumqayıt şəhərindəki 1 saylı uşaq bağçasının kiçik və orta qruplarında da sorğular apardıq. Kontrol qruplara yalnız nəzarət etdiyimiz üçün bu qruplarda apardığımız sorğuların nəticələrini qarşılaşdırma, tutuşdurma yolu ilə müqayisəyə cəlb etdik. Didaktik oyunların həm özünün, həm oyunlara hazırlıq vəziyyətinin səmərəsini yoxlamaq məqsədi ilə iki istiqamət üzrə anket sorğusu apardıq. Birinci istiqamət üzrə sorğuya hazırlığın vəziyyətini müqayisə etmək üçün bağçada didaktik oyunun təşkilatçıları hesab olunan əməkdaşlarla sorğu apardıq. Onlara aşağıdakı suallarla müraciət etdik.

1. Didaktik oyunları əvvəlcədən planladırırsınızmı?
2. Didaktik oyunların ssenarilərini özünüz hazılayırsınızmı?
3. Didaktik oyunlar hazırlayarkən Azərbaycan və türk folkloru materiallarından istifadə edirsinizmi?
4. Didaktik oyunların təşkili işində uşaqların əxlaq tərbiyəsinin inkişafına üstünlük verirsinizmi?
5. Oyunun təşkili və təqdimatı prosesində quruluşçu, səs, musiqi rejissoru, dekorasiya və geyim üzrə rejissor vəzifəsini icra edən olurmu?

Alınan cavablardan aydın oldu ki, eksperimental qruplarda çalışan bağça əməkdaşlarının hazırlığı kontrol qruplarda çalışan bağça əməkdaşlarının hazırlıq səviyyəsindən çox yüksəkdir. Alınan nəticə aşağıda göstərilən şəkildəki kimi olmuşdur.

| S/N | Eksperimental qruplarda didaktik oyunları hazırlayan əməkdaşlar | Suallar üzrə cavablar | Cavabların səviyyəsi “bəli”, “xeyr” olmaqla | | |
|---|---|---|---|---|---|
| | | | Bəli | Xeyr | Cavab vermək istəmədi |
| 1. | Baş tərbiyəçi | 1-5-ci sual üzrə cavab verdi | + | - | - |
| 2. | Metodist | 1-5-ci sual üzrə cavab verdi | + | - | - |
| 3. | Qrupun tərbiyəçisi | 1-5-ci sual üzrə cavab verdi | + | - | - |
| 4. | Qrupun musiqi rəhbəri | 1-5-ci sual üzrə cavab verdi | + | - | - |

**Şəkil 1. Səbail rayonu 1 saylı uşaq bağçasında aparılan sorğu anketi**

Şəkildən göründüyü kimi, eksperimental qruplarda didaktik oyunların hazırlanması işində iştirak edən əməkdaşların hamısı verilən suallara "bəli" deməklə 5-6 yaşlı qruplarda didaktik oyunların təşkilində uşaqların əxlaq tərbiyəsinin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edən Azərbaycan və türk folkloru nümunələrindən günün tələbləri səviyyəsində istifadə etdiklərini bildirmişlər. Təəssüf ki, kontrol qruplarda çalışan bağça əməkdaşları həmin sualların hamısına mənfi cavab vermişlər. Hətta bağça əməkdaşlarından bir neçəsi suallara cavab verməkdən də imtina etmişdir. Kontrol qrupların əməkdaşlarının cavabları aşağıdakı kimi olmuşdur.

<table>
<tr><th rowspan="2">S/ N</th><th rowspan="2">Eksperimental qruplarda çalışan əməkdaşlar</th><th rowspan="2">Cavablar</th><th colspan="3">Cavabların səviyyəsi "bəli", "xeyr" olmaqla</th></tr>
<tr><th>Bəli</th><th>Xeyr</th><th>Cavab vermək istəmədi</th></tr>
<tr><td>1.</td><td>Baş tərbiyəçi</td><td>1-5-ci sual üzrə cavab verdi</td><td>-</td><td>Xeyr</td><td>-</td></tr>
<tr><td>2.</td><td>Metodist</td><td>1-5-ci sual üzrə cavab verdi</td><td>-</td><td>Xeyr</td><td>-</td></tr>
<tr><td>3.</td><td>Qrup tərbiyəçisi</td><td>1-5-ci sual üzrə cavab verdi</td><td>-</td><td>-</td><td>imtina etdi</td></tr>
<tr><td>4.</td><td>Musiqi rəhbəri</td><td>1-5-ci sual üzrə cavab verdi</td><td>-</td><td>-</td><td>imtina etdi</td></tr>
</table>

**Şəkil 2. Sumqayıt şəhər 1 saylı uşaq bağçasında aparılan sorğu anketi**

Göründüyü kimi, öyrədici materiallardan istifadə etdikləri üçün eksperimental qruplarda çalışan əməkdaşların hamısı Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə didaktik oyunların təşkilində uşaqların əxlaq tərbiyəsini formalaşdırmaq işində zəngin səriştəyə malik olmuşlar.

Öyrədici materialların səmərəsini yoxlamaq üçün eksperimental qrupların 5-6 yaşlı uşaqları ilə sorğu təşkil etdik. Sorğu anketinə aşağıdakı sualları daxil etdik:

1. Azərbaycan folklorundan dostluğa, yoldaşlığa dair nümunələr deyib şərh edə bilərsənmi?
2. Türk folklorundan düzlük və doğruçuluğa dair nümunələr deyib şərh edə bilərsinizmi?

3. Azərbaycan və türk folklorundan vətənpərvərliyə dair nümunələr deyib şərh edə bilərsinizmi?

4. Türk dastanlarındakı qəhrəmanlıq nümunələrindən birini şərh edə bilərsinizmi?

5. Azərbaycan dastanlarındakı qəhrəmanlıq nümunələrindən birini şərh edə bilərsinizmi?

6. Türk dastanlarından biri olan Çanaqqala dastanını nümunə kimi şərh edə bilərsinizmi?

Alınan cavablar aşağıdakı cədvəldəki kimi olmuşdur.

**Eksperimental qruplarda aparılan anket sorğusunun nəticələri**

Cədvəl 1.

| S/N | Suallar | Uşaqların sayı | Cavabların səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yaxşı şərh etdi | Pis şərh etdi | Şərh edə bilmədi |
| 1. | Birinci suala verilən cavablar | 30 | 26 | 4 | 0 |
| 2. | İkinci suala verilən cavablar | 25 | 23 | 2 | 0 |
| 3. | Üçüncü suala verilən cavablar | 25 | 23 | 2 | 0 |
| 4. | Dördüncü suala verilən cavablar | 30 | 27 | 3 | 0 |
| 5. | Beşinci suala verilən cavablar | 30 | 27 | 3 | 0 |
| 6. | Altıncı suala verilən cavablar | 29 | 26 | 3 | 0 |

Cədvəldən göründüyü kimi, eksperimental qrupun uşaqlarının çoxu verilən sualların əksəriyyətini yaxşı şərh etmişdir. Yalnız birinci suala 30 uşaqdan 4-ü, ikinci suala 25 uşaqdan 2-si, üçüncü suala 25 uşaqdan 2-si, dördüncü suala 30 uşaqdan 3-ü, beşinci suala 30 uşaqdan 3-ü, altıncı suala isə 29 uşaqdan 3-ü pis cavab vermişdir.

Müqayisəli təhlillər aparmaqla nəzarətdə saxladığımız kontrol qrupların uşaqlarına da həmin suallar əsasında müraciət etdik. Apardığımız

anket sorğusunun nəticələrinə diqqət etsək, alınan fərqin nə qədər yüksək olduğunun şahidi olarıq.

**Kontrol qruplardan aparılan anket sorğusunun nəticələri**

Cədvəl 2.

| S/N | Suallar | Uşaqların sayı | Cavabların səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yaxşı şərh etdi | Pis şərh etdi | Şərh edə bilmədi |
| 1. | Birinci suala verilən cavablar | 28 | - | 2 | 26 |
| 2. | İkinci suala verilən cavablar | 27 | - | 2 | 25 |
| 3. | Üçüncü suala verilən cavablar | 26 | - | 1 | 25 |
| 4. | Dördüncü suala verilən cavablar | 25 | - | 2 | 23 |
| 5. | Beşinci suala verilən cavablar | 30 | - | 3 | 27 |
| 6. | Altıncı suala verilən cavablar | 29 | - | 2 | 27 |

Cədvəldən göründüyü kimi, eksperimental qrupun uşaqlarının demək olar ki, hamısı verilən sualların cavablarını yaxşı şərh edə bilməmişdir. Daha dəqiq desək, birinci suala cavab verən 28 uşaqdan 2-si, ikinci sualı cavablandıran 27 uşaqdan 2-si, üçüncü sualın cavabını şərh edən 26 uşaqdan 1-i, dördüncü suala cavab vermək istəyən 25 uşaqdan 2-si, beşinci sualı şərh etmək arzusunda olan 30 uşaqdan 3-ü və altıncı sualı cavablandırmaq istəyən 29 uşaqdan 2-si pis şərh etmiş, qalanları isə heç bir yaxşı cavab verə bilməmişlər.

Bütün bunlar onu göstərir ki, Azərbaycan və türk folkloru materialları əsasında didaktik oyunları hazırlayan zaman ssenarinin yazılması, öyrədici materialların tərtib edilməsi, səs, musiqi dekorasiya və geyim tərtibatı üzrə işlərin düzgün qurulması məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşmasını hərtərəfli təmin etmiş olur.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas vermişdir:

1. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılmasında folklor nümunələrindən istifadə etməyin elmi-pedaqoji cəhətdən əhəmiyyəti böyükdür.

2. Uşaq bağçalarında folklor nümunələrindən istifadə edərkən əxlaq tərbiyəsi üçün yararlı olanların seçilməsi uşaqların hərtərəfli inkişafını təmin etmiş olur.

3. Uşaq folklorunda Azərbaycan ve türk folklorunun yerinin müəyyənləşdirilməsi bağçalarda 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişafı üçün etibarlı mənbələrdən birinin yaranması kimi dəyərləndirilməlidir.

4. Ailələrdə məktəbəqədər yaşlı uşaqların Azərbaycan və türk folklor nümunələri ilə tanış edilməsi onlarda vətənpərvərlik, xəlqilik, soykökə məhəbbət hislərinin və digər əxlaqi keyfiyyətlərin bünövrəsini qoymuş olur.

5. Uşaq bağçalarında 3-6 yaşlı uşaqlara ağılar, laylalar, bayatılar, tapmacalar, atalar sözü və məsəllər, əfsanələr, rəvayətlər, nağıllar, dastanlar və bu kimi digər Azərbaycan və türk folkloru nümunələrinin öyrədilməsi hər iki xalqın məktəbəqədər yaşlı uşaqlarının əxlaqının saflaşdırılmasında mühüm rol oynamış olur.

6. Ailələrdə və bağçalarda Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsini inkişaf etdirməyin yolları düzgün müəyyənləşdirilərsə, hər iki ölkənin məktəbəqədər təhsil müəssisələri haqqında danışılan məsələnin müvəffəqiyyətli həlli üçün geniş imkanlar yaranır.

7. Uşaq bağçalarının orta və böyük qruplarında Azərbaycan ve türk folklorundakı mifik qəhrəmanların və hadisələrin mahiyyəti, o cümlədən "Suyun nəsihəti", "Yada nəğmələri", "Aban nəğmələri", "Su falları", "Yağış falları", "Qodunun nəğmələri" kimi etnopedaqoji nümunələrin məzmunu barədə məktəbəqədər yaşlı uşaqlara verilən məlumatlar və informasiyalar onların əxlaq tərbiyəsinin formalaşdırılması üçün stimul rolunu oynayır.

8. Azərbaycan və türk folklorunun dastan janrına dair materiallardan, o cümlədən "Su", "Ergenekon", "Alp-ər Tunqa", "Oğuz Kağan", "Koç", "Dədə Qorqud",Çanaqqala destanı və bu kimi nümunələrdən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaqi keyfiyyətlərinin bünövrəsinin düzgün qoyulması üçün zəmin yaranmış olur.

9. Azərbaycan və türk folkloru nümunələrinin birgə imkanlarından istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaqının saflaşdırılması ümumtürk koloritinin yaranmasına da səbəb olur.

10. Didaktik oyunların təşkili zamanı Azərbaycan və türk folkloru nümunələrindən istifadə olunması oyunların elmi, pedaqoji, metodik və bədii üsulubunu zənginləşdirməklə yanaşı, məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılmasını hərətəfli təmin etmiş olur.

11. Didaktik oyunların ssenarilərini hazırlayarkən Azərbaycan və türk folklorunun ağı, layla, bayatı, atalar sözü, menkabe, ninni, rəvayət, əfsanə, nağıl və dastan kimi nümunələrindən istifadə olunması məktəbəqədər yaşlı uşaqların əxlaqı keyfiyyətlərini inkişaf etdirməklə yanaşı, onların milli türk koloritinin də yüksəlməsinə təkan vermiş olur.

Tədqiqat zamanı görülən işlərə əsasən aşağıdakı **təkliflər** vermək mümkündür:

1. Azərbaycan və türk folkloru nümunələri əsasında məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsini formalaşdırmağa xidmət edən didaktik materialların, planşetlərin, əyani vəsaitlərin, bukletlərin hazırlanması faydalı olardı.

2. Azərbaycan və türk folkloru nümunələri əsasında məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinə xidmət edən didaktik oyunların və onların cizgi filmi, uşaq filmləri kimi variantlarının yaradılması məqsədəuyğun olardı.

3. "Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi" adlı metodik tövsiyələrin, kitabçaların, kitabların, monoqrafiyaların hazırlanması, Azərbaycan və türk dillərində çap edilməsi həm Türkiyənin, həm də Azərbaycan Respublikası bağçalarına təqdim edilməsi çox faydalı olar və türk xalqlarının mənəvi birliyinə xidmət etmiş olar.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Azərbaycan-türk folkloru nümunələrindən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması yolları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2011, №4, s.198-204

2. Azərbaycan və türk folklor nümunələrindən istifadə etməklə uşaqların ailədə əxlaq tərbiyəsinin formalaşdırılması // Pedaqoji Universitet Xəbərləri, 2014, №1, s. 310-315

3. “Şəngülüm, Şüngülüm, Məngülüm” uşaq nağılının digər bir türk variantı haqqında // AMİ-nin Xəbərləri, 2014, №1, s. 101-105

4. Азербайджанские и Тюркские колыбельные песни как средство нравственного воспитания детей // Педагогични науки, Сбирник наукових правь, Полтава, 2014, выпуск 60, с.36-41

5. Didaktik oyunların təşkili zamanı Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması yolları / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illik yubileyinə həsr olunmuş “Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 5-6 may, 2014, s. 473-480

6. 3-6 years-old forming on the morals upbringing of the childrens use from examples of Turkey and Azerbaijan folklore // Asosjournal the journal of Academic Social Science yil: 2 sayi: 6, s. 355-364

7. Uşaqların əxlaq tərbiyəsinin inkişafında Azərbaycan və türk laylalarından istifadənin əhəmiyyəti. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2014 №1, s. 94-99

8. Azərbaycan və türk beşik nəğmələri uşaqların əxlaq tərbiyəsinin vasitəsi kimi. Odlar Yurdu Universitetinin Elmi-Pedaqoji Xəbərləri, 2013, № 38, s. 136-142

9. Azərbaycan və türk folklorunda Novruz bayramı ənənələrinin uşaqların əxlaq tərbiyəsinin inkişafında rolu // Odlar Yurdu Universitetinin Elmi-Pedaqoji Xəbərləri, 2014, №39, s. 176-182

10. Azərbaycan və türk beşik nəğmələri uşaqların əxlaq tərbiyəsinin vasitəsi kimi // Naxçıvan Müəllimlər İnstitunun Xəbərləri, 2013, cild: 9, №4, s. 86-91

11. Didaktik oyunlar məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin mühüm vasitəsi kimi / Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar “Təhsil kurikulumları: nəzəri problemlər” mövzusunda keçirilmiş Respublika konfransının materialları, 15 aprel 2014, s. 66-68

12. “Şəngülüm, Şüngülüm, Məngülüm” uşaq nağılının başqa bir türk variantı haqqında // Milli pedaqogika məktəbi, Bakı, 2012, №1, s.86-92

13. Uşaqların əxlaq tərbiyəsinin inkişafında Azərbaycan və türk laylalarından istifadənin əhəmiyyəti // Milli pedaqogika məktəbi, 2013, №1, s.72-78

14. Azərbaycan və türk folklor nümunələrindən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması yolları /

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədər təşkil olunan elmi-praktik konfransın materialları. Naxçıvan, 2014, aprel, 30 ç/v.

15. Heydər Əliyev irsindən ümumtəhsil müəssisələrində istifadə etməyin elmi-pedaqoji əsasları / Azərbaycan Dövlət Pedaqoji Universiteti, Hacəttəpə Universiteti, Qafqaz Universiteti, Ümummilli Lider Heydər Əliyevin Anadan olmasının 92-cı ildönümünə həsr olunmuş "Müəllim hazırlama siyasəti və problemləri" V Beynəlxalq Simpoziumun materialları, Bakı, Azərbaycan- 30 aprel 2015, s.177-178

**Гае Арслан Эмин гызы**

## Возможности использования образцы Азербайджанского и Тюркского фольклора в нравственном воспитании детей дошкольного возраста

## РЕЗЮМЕ

Диссертация состоит из введения, 2 основных глав, соединяющих в себе 7 параграфов, заключения, списка литературы. Во введении была обоснована актуальность темы, указаны объект, предмет исследования, гипотеза, цель и задачи методологические основы, методы исследования, научная новизна, теоретическая и практическая значимость и др.

В первой главе нашло свое отражение такие глобальные вопросы как место детских фольклорных образцов в Азербайджанской и Тюркской литературе, педагогические, психологические основы исследования.

Во второй главе диссертации «Возможности использования образцов Азербайджанского и Тюркского фольклора в развитии нравственного воспитания детей в семье, дошкольных воспитательных учреждениях соответственно освещены вопроса формирования нравственного воспитания детей 3-6 летнего возраста с использованием образцов Азербайджанского и Тюркского фольклора в семье дошкольных учреждениях.

Во второй главе нашли свое отражение результаты экспериментальной работы. В определяющем, обучающем, а также проверяющем этапах эксперимента, подтверждена правильность научной гипотезы.

В заключении диссертации нашло свое отражение научные выводы автора, полученные в результате проводимой работы.

**Qaye Arslan Emin**

## Opportunities of utilizing Azerbaijani and Turkish folkiore samples in moral upbringing of preschool children.

## SUMMARY

Scientific-Research dissertation work is consist of introduction, 2 main chapters containing 7 subsections, result and the list of literature. In the introduction the urgency of the subject is grounded, the object, subject, theory, purpose-obligation, methodological base, styles of research, base, scientific innovation, theoretical- practical importance and provisions presented to defence are interpreted.

In first chapter the place of child folklore in Turkish and Azerbaijani folklore, presenting of problem in work experience and literature and global matters pedagogical-psychology bases are reflected.

Three subsections exist in second chapter of the dissertation named "Opportunities of utilizing Azerbaijani and Turkish folklore samples in developing moral upbringing of children in families and preschool institutions". In each of them the matters on formation of moral upbringing of children 3-6 aged are interpreted by using Turkish and Azerbaijani folklore samples in families, preschool institutions and in organizing didactic games.

The results of experimental work are also reflected in second chapter. Authenticity of scientific theory is proved in definable, documentary and controller phases of the experiment conducted in three stages. The results of scientific innovations are shown in the part of conclusion of the dissertation and some essential requests are put forward. The list of used literature is given at the end of the dissertation.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**ГАЕ АРСЛАН ЭМИН ГЫЗЫ**

# ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ОБРАЗЦЫ АЗЕРБАЙДЖАНСКОГО И ТЮРКСКОГО ФОЛЬКЛОРА В НРАВСТВЕННОМ ВОСПИТАНИИ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

**5804.01 – Общая педагогика, история педагогики и образования**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку – 2015**